# *TƏSVİRİ İNCƏSƏNƏTİN TƏDRİSİ METODİKASI*

UOT 372.87.0

***Elnarə Qoşqar qızı Rəsulova***
*fəlsəfə doktoru proqramı üzrə dissertant*
*Gəncə Dövlət Universiteti*

## SİNİFDƏNXARİC MƏŞĞƏLƏLƏRDƏ TƏSVİRİ İNCƏSƏNƏT ÜZRƏ AZƏRBAYCAN XALQ YARADICILIĞI NÜMUNƏLƏRİNDƏN İSTİFADƏ İMKANLARI VƏ FORMALARI

***Эльнара Гошгар гызы Расулова***
*диссертант по программе доктора философии*
*Гянджинский Государственный Университет*

## ВОЗМОЖНОСТИ И ФОРМЫ ИСПОЛЬЗОВАНИЯ ОБРАЗЦОВ АЗЕРБАЙДЖАНСКОГО НАРОДНОГО ИСКУССТВА ПО ИЗОБРАЗИТЕЛЬНОМУ ИСКУССТВУ НА ВНЕКЛАССНЫХ ЗАНЯТИЯХ

***Elnara Goshgar Rasulova***
*doctorial student in the program of doctor of philosophy*
*Ganja State University*

## POSSIBILITIES AND FORMS OF USING SAMPLES OF AZERBAIJAN FOLK ART ON FINE ARTS IN OUT-OF-CLASS CLASSES

**Xülasə.** Müxtəlif formalı xalq yaradıcılığı nümunələri öz növbəsində müxtəlif qəbildən olan insanların estetik tələbatını ödəmək baxımından da mühüm əhəmiyyət kəsb etmişdir. Belə ki, bədii tikmə, xalçaçılıq, ağac üzərində oyma, metal üzərində döymə vasitəsilə meydana çıxarılan sənət nümunələri əsrlərdən-əsrlərə, nəsillərdən-nəsillərə keçərək xalq sənətkarlarının peşə məharətini, bədii-estetik zövqünü nümayiş etdirmişdir. Belə bir mövqe eyni zamanda ayrı-ayrı növ və janrlardakı nümunələrin əsas mahiyyəti, ifadə vasitələri, xarakterik xüsusiyyətləri haqqında düzgün biliyə, təsəvvürə malik olmaq zərurətini qarşıya qoyur. Heç şübhəsiz, indiki dövrdə parta arxasında əyləşən məktəblilərdə Azərbaycan xalq yaradıcılığı nümunələri haqqında aydın, elmi əsaslara söykənən təsəvvür yaratmaq mühüm təhsil və tərbiyəvi əhəmiyyəti olan bir məsələ kimi dəyərləndirilir.

***Açar sözlər:*** *təsviri sənət, dekorativ və tətbiqi sənət, folklor nümunələri, növü və janrları, bədii fəaliyyət, estetik hisslər*

**Резюме:** Образцы народного искусства в различных формах, в свою очередь, были важны с точки зрения удовлетворения эстетических потребностей людей. Таким образом, образцы искусства, созданные с помощью художественной вышивки, ковроткачества, резьбы по дереву, ковки металла, передавались из века в век, из поколения в поколение, демонстрируя профессионализм, художественный и эстетический вкус народных мастеров. Такая позиция также подчеркивает необходимость иметь точные представления и знания об основной сущности, средствах выражения, характерных особенностях образцов разных типов и жанров. Несомненно, на сегодняшний день считается важной задачей создание четкого, научно обоснованного образа азербайджанского народного творчества среди учащихся.

***Ключевые слова:*** *изобразительное искусство, декоративно-прикладное искусство, образцы фольклора, виды и жанры, художественная деятельность, эстетические чувства*

**Summary.** Samples of folk art in various forms, in turn, were important in terms of meeting the aesthetic needs of people. Thus, samples of art created using artistic embroidery, carpet weaving, wood

carving, metal forging were passed down from century to century, from generation to generation, demonstrating the professionalism, artistic and aesthetic taste of folk craftsmen. This position also emphasizes the need to have accurate ideas and knowledge about the basic essence, means of expression, characteristic features of samples of different types and genres. Undoubtedly, today it is considered an important task to create a clear, scientifically grounded image of Azerbaijani folk art among students.

***Key words***: *fine art, arts and crafts, folklore patterns, look and genres, artistic activity, aesthetic feelings*

Təsviri incəsənət üzrə Azərbaycan xalq yaradıcılığının ayrı-ayrı növ və janrlarındakı nümunələr həyat və məişətimizə daxil olduğu vaxtdan müxtəlif nəsildən olan insanların mənəvi zənginliyində, estetik zövqünün inkişafında mühüm rol oynamışdır. Unutmaq olmaz ki, həmin nümunələr həyatı – həyatın özündən daha təsirli və cazibədar şəkildə təsvir və tərənnüm etmək imkanına malikdir. Deməli, indiki dövrdə həyat və məişət anlarını əks etdirən sənət nümunələrinin mənasını başa düşmək, təsvir və tərənnüm etmək hər bir şagird-məktəbli üçün zəruri sayılan bilik, bacarıq və qabiliyyətlər sırasında olmalıdır. Belə bir cəhət də xüsusi maraq doğurur ki, təsviri incəsənət üzrə Azərbaycan xalq yaradıcılığı nümunələrinin bədii-estetik mahiyyətini düzgün başa düşmək, dəyərləndirmək tarixi inkişafın müxtəlif dövrlərində sənətşünas və pedaqoq alimlərin diqqət mərkəzində olmuş problem xarakterli fikirlər söyləmişlər. Sənətşünaslıq üzrə elmlər doktoru, professor Nurəddin Həbibov yazır:

"İdeyalılıq sənətdə xəlqilikdən ayrılmazdır... Xəlqiçilik hissiyatı realist sənətin başlıca xassələrindəndir. Xəlqilik məfhumu geniş və çoxcəhətlidir. Dulusçular, dəmirçilər, zərgərlər, toxucular, daşyonanlar, xarratlar, ağac və sümük üzrə həkkarlar, silahqayıranlar, rəngsazlar, dərzilər – bir sözlə peşəkar sənətin əsil baniləridir. Onların yaratdıqları incilər muzeyləri bəzəyir, nəzərimizi oxşayır" [5, s.39].

Görkəmli sənətşünas alimin Azərbaycan xalq yaradıcılığının əsas qolları haqqında diqqətə çatdırdığı bu fikirlər sənətin milli və bəşəri mahiyyəti haqqında aydın təsəvvür yaradır. Eyni zamanda belə bir sual da meydana çıxır:

– İndi parta arxasında əyləşən məktəblilər təsviri sənət üzrə Azərbaycan xalq yaradıcılığı nümunələri haqqında lazımi biliklərə yiyələnmişlərmi, anlaq səviyyələri necədir?

– Xalq sənətinin milli və bəşəri mahiyyəti haqqında təəssüratlarını sadə şəkildə də olsa ifadə edə bilirlərmi?

Respublikamızın bir sıra şəhər və kənd məktəblərində aparılan müşahidələr göstərir ki, V-IX siniflərdə oxuyan şagirdlər həmin suallara mükəmməl cavab verə bilmirlər. Əlbəttə, bu cəhət mövcud vəziyyətlə əlaqədardır. Unutmaq olmaz ki, təsviri sənət üzrə Azərbaycan xalq yaradıcılığı nümunələrinin növ və janrları haqqında zəruri biliklərə yiyələnmədən lazımi təsəvvürə, anlayışlara yiyələnmək mümkün deyil.

Təsviri incəsənət təliminin I-IX siniflərində həftədə bir saat hesabı ilə tədris olunduğunu nəzərə alsaq imkan məhdudluğu daha aydın şəkildə nəzərə çarpar. Bəs nə etmək, problem dairəsində əsaslı dönüş yaratmaq üçün nə kimi iş tərzinə yiyələnmək lazımdır?

Bu suala qısaca olaraq belə cavab vermək olar: sinifdənxaric məşğələlər vasitəsilə. Respublikamızın ayrı-ayrı şəhər və kənd məktəblərində ibtidai və yuxarı sinif şagirdlərini əhatə edən dərnəklərin təşkili mövcud vəziyyətdən çıxış yolu kimi dəyərləndirilməlidir. Pedaqogika üzrə fəlsəfə doktoru, professor Mərdan Məmmədov problemin həlli yollarından bəhs edərək yazır:

"İndiki şəraitdə problemin real həlli üçün hər bir ümumtəhsil məktəbində təsviri incəsənətə böyük maraq göstərən, müvafiq qabiliyyəti, istedadı olan şagirdlərin düzgün müəyyənləşdirilməsi, onların maraq və meyllərinə görə aşağı siniflərdən başlayaraq geniş bədii dərnəklər şəbəkəsinə, studiyalara cəlb edilməsi, məşğələlərin müntəzəm, sistemlə canlı və maraqlı, əyani-illüstrativ materiallar əsasında həyata keçirilməsi lazım gələn ilk tədbirlərdəndir [6, s. 5].

Çox yerində və həyati əhəmiyyət kəsb edən bir tərzdə deyilmişdir. Problem dairəsində müvafiq dönüş yaratmaq məqsədilə nəzərə çatdırılmışdır. Qarşıda duran vəzifələrin həlli yolları daha konkret şəkildə göstərilmişdir: "Həmin istiqamətdə fəaliyyət prosesində kütləviliyə fikir vermək, müxtəlif məşğələ formaları ilə daha çox şagirdi əhatə etmək də nəzərdən qaçırılmamalıdır. Əlbəttə, bunun üçün məktəb təcrübəsində

təsviri incəsənət üzrə özünə geniş yer tutan ənənəvi və yeni məşğələ formalarına istinad etmək məqsədəmüvafiqdir. Təsviri incəsənət üzrə müxtəlif məktəbyaşlı dövrlərini əhatə edən sinifdənxaric məşğələ formaları bunlardır: "Rəsm dərnəyi", "Təbiət materiallarının bədii tərtibatı və emalı", "Təsviri incəsənət studiyası", "Təsviri incəsənət həvəskarları klubu" [6, s. 5].

Professor M. Məmmədovun təsviri incəsənət üzrə göstərdiyi sinifdənxaric iş formaları eyni zamanda Azərbaycan xalq yaradıcılığı nümunələrinin öyrədilməsi baxımından da mühüm əhəmiyyətə malikdir. Buna görə də əsas diqqət ona yönəldilməlidir ki, məşğələlər məzmununa, əhatəliliyinə görə diqqəti cəlb etsin. Həm nəzəri, həm də təcrübi-praktik istiqamətilə müxtəlif yaş qrupuna malik olan məktəblilərin marağına, rəsmetmə qabiliyyətlərinin inkişafına zəmin yaratsın.

Müşahidələr, qabaqcıl iş təcrübələri göstərir ki, sinifdənxaric məşğələlərinə həm ibtidai, həm də yuxarı sinif şagirdləri böyük maraq göstərirlər. Buna görə də əsasən V-IX sinif şagirdlərini əhatə edən "Dekorativ-tətbiqi sənət dərnəyi" təşkil etmək daha məqsədəmüvafiq sayılmalıdır. Məhz elə buna görə də dərnəyin məşğələlərinin daha məzmunlu keçirilməsi üçün zəruri mövzular müəyyənləşdirilmişdir.

Azərbaycan xalq yaradıcılığının çox geniş yayılan janrlarından olan dekorativ-tətbiqi sənət nümunələrinə xüsusi diqqət yetirilmişdir. Tədqiqat prosesində, sınaq təcrübələri zamanı V-IX siniflərdə təsviri incəsənət fənnini tədris edən müəllimlərin nəzərinə çatdırılmış, onlara müvafiq tövsiyələr verilmişdir. Sinifdənxaric məşğələlərdə istinad edilməsi lazım gələn mövzular belə müəyyənləşdirilmişdir:

1. Azərbaycan xalq yaradıcılığında dekorativ-tətbiqi sənət nümunələrinin yeri və əhəmiyyəti.
2. Dekorativ-tətbiqi sənətlər xalq yaradıcılığının geniş yayılan növləri kimi.
3. Dekorativ-tətbiqi sənətin növləri və formaları.
4. Xalqın həyat və məişətində geniş yer tutan dekorativ sənət nümunələrinin başlıca xüsusiyyətləri.
5. Bədii tikmə dekorativ-tətbiqi sənətin geniş yayılan növü kimi.
6. Bədii tikmə nümunələrinin tətbiqi sahələri.
7. Güləbətin tikmələrinin formaları, başlıca xüsusiyyətləri.
8. Muncuqlu tikmələrin formaları, başlıca xüsusiyyətləri.
9. Pilək və oturtma (apilikasiya) tikmələrin formaları, xüsusiyyətləri.
10. Ağac üzərində oyma sənəti nümunələri.
11. Misgərlik, zərgərlik sənəti nümunələri.
12. Bədii keramika-dulusçuluq xalq yaradıcılığının qədim nümunələri kimi.
13. Xalça-xalça məmulatları xalq yaradıcılığının – dekorativ sənət nümunələrinin geniş yayılan növləri kimi.
14. Azərbaycan xalçalarının müxtəlif qruplar üzrə növləri: Quba-Şirvan (1-ci qrup), Gəncə-Qazax (2-ci qrup), Qarabağ (3-cü qrup), Təbriz (4-cü qrup) xalçaları və onların başlıca xüsusiyyətləri.
15. Xalça sənətinin inkişafında xalçaçı rəssamların (Lətif Kərimov, Kamil Əliyev, Cəfər Müciri, Eldar Mikayılzadə və başqaları) rolu, fəaliyyət istiqamətləri.
16. Azərbaycan xalçaları dünya muzeylərində. Azərbaycan xalça muzeyinin bu istiqamətdə rolu, əhəmiyyəti.

Göstərilən mövzular üzrə sinifdənxaric məşğələlərinin həftədə bir dəfə (2 saat həcmində) keçirilməsi nəzərdə tutulur. Belə bir cəhəti də unutmaq olmaz ki, məşğələlər bədii dərnəklər və ya fakultativ məşğələlər üçün ayrılan saatlar əsasında təşkil olunur.

Təsviri incəsənətin tədrisi sahəsində qabaqcıl təcrübələri ilə tanınan məktəblərdə isə həmin məşğələlərin ictimai əsaslarla aparılması da məlumdur.

Problemin belə bir cəhətini də unutmaq olmaz ki, "Dekorativ-tətbiqi sənət dərnəyi" üzrə göstərilən mövzular həm nəzəri, həm də praktik istiqaməti ilə mühüm əhəmiyyət kəsb edir. Buna görə də dərnək məşğələlərini aparan müəllimlər, habelə müvafiq mütəxəssislər göstərilən mövzular həm nəzəri, həm də praktik əhəmiyyəti ilə şagirdlərə çatdırmalıdırlar. Ayrı-ayrı növ və formalar üzrə verilən məlumatlar xalq sənətkarlarının əl işlərilə konkret şəkildə əlaqələndirilməlidir.

Təsvirdə – rəsmetmə fəaliyyətində rənglərdən öz yerində, ahəngdarlıqla istifadə eyni zamanda ayrı-ayrı əşya və obyektlərin öz rəngində təsvirinin parlaq ifadəsidir. Məhz buna görə də dərnək məşğələlərində şagirdlər tərəfin-

dən çəkilən rəsmlərdə rəng çalarlarından düzgün istifadə edilməsi məsələsi diqqət mərkəzində olmalıdır.

Şagirdlərin nəzərinə çatdırmaq lazımdır ki, ayrı-ayrı əşya və obyektlərin təsvirində rənglərin təbii şəkildə düzgün seçilməsi mükəmməlliyə zəmin yaradır. Bu da məlundur ki, təsviri sənətin əsas ifadə vasitələrindən olan rəng problemi xalq dekorativ-tətbiqi sənət nümunələrində həmişə əsas götürülmüşdür. Xalq sənətkarları müxtəlif növlərdə yaratdıqları əl işlərində rənglərin düzgün seçilməsinə həmişə böyük əhəmiyyət vermişlər. Belə bir cəhəti də unutmaq olmaz ki, təsviri yaradıcılıqla rəng əlaqələri, rəng ahəngdarlığı eyni zamanda kolorit sözü – ifadə tərzi ilə nəzərə çatdırılmışdır.

Unutmaq olmaz ki, istər peşəkarlığın yaratdıqları dekorativ sənət nümunələri, istərsə də dərnək məşğələlərində şagirdlərin meydana çıxardıqları əl işləri məhz rənglərin yerli-yerində düzgün seçilməsi baxımından həqiqi qiymətini alır. Buna görə də dərnək məşğələlərində xalq yaradıcılığı ilə aşılanan əl işlərində şagirdlərə rəng çalarlarından düzgün istifadə bacarığı aşılanmalıdır.

Şagirdlərin nəzərinə çatdırmaq lazımdır ki, onların dekorativliyi əks etdirən əl işləri o zaman təbii görkəm alır ki, rənglər təsvirin ahənginə uyğun şəkildə əks etdirilir.

Azərbaycan xalq yaradıcılığının – dekorativ-tətbiqi sənətinin mühüm növlərindən sayılan milli geyimlər çox geniş yayılmışdır. Müxtəlif çeşidlərlə, forma, bəzək əlamətləri ilə zəngindir. Bu sənətə xüsusi maraq göstərən, bu sahədə fəaliyyət göstərən xalq sənətkarlarının müxtəlif nəsildən olan insanlar üçün yaratdıqları milli geyim nümunələri öz növbəsində hər yerdə maraq doğuran sənət inciləridir. Forma, biçim, bəzək xüsusiyyətlərinə görə də zövq oxşayır.

Milli geyim nümunələrinin həmişə, hər yerdə maraqla qarşılanmasının mühüm bir səbəbi də bədii-texniki vasitələrə öz yerində, məqamında istinad edilməsidir. Bunları aşağıdakı şəkildə qruplaşdırmaq olar: 1. İstifadə edilən parçaların növ müxtəlifliyi nəzərə alınmasıdır. Təbii-bitki mənşəli (pambıq, kətan), heyvan mənşəli (ipək, yun), habelə kimyəvi (süni, sintetik) parçalar üzrə bir-birindən maraqlı formaya malik paltar dəstləri hazırlanmışdır. 2. Milli geyim nümunələrinin daha mükəmməl, rəngarəng, iqlimə davamlı alınması üçün münasib saplardan istifadə olunmuşdur. 3. Geyim nümunələrinin zövq oxşayan şəkildə başa gəlməsi üçün istifadə edilən alətlərin münasibliyi nəzərə alınmışdır. 4. Formasına, istifadə anlarına görə tikişin müxtəlifliyinə, saplardan əlverişli şəkildə istifadə olunmasına yaradıcılıq ənənəsi kimi baxılmışdır. 5. Tikiş texnikasına, o cümlədən bədii hörmə və toxumaların zövq oxşayan tərzdə alınmasına böyük dəyər verilmişdir.

Xalqımızın çoxəsrlik tarixə malik olan geyim nümunələri eyni zamanda maddi və mənəvi mədəniyyətimizin mühüm tərkib hissəsidir.

Milli geyimlər eyni zamanda xalqımızın bədii irsimizin ayrılmaz, həmişə dəyərləndirilən sahəsidir.

Milli geyimlərin xüsusi sənət növü kimi dəyərləndirilməsi xalq sənətkarlarının bu sahəyə xüsusi diqqət və qayğı göstərməsi ilə bağlı olmuşdur. Bir-birindən baxımlı milli geyim dəstləri yaradılmışdır.

Baş örtükləri, rəngarəng kəlağayılar, üst geyimləri, bunlara uyğun ayaqqabılar, başmaqlar kompleks şəkildə geniş yayılmışdır. Belə bir fakt da xüsusi maraq doğurur ki, hələ XIX əsrdə doğma yurdumuzun həyat və məişət ənənələri ilə yaxından tanış olan görkəmli rus rəssamı və səyyahı Q. Qaqarin ayrı-ayrı bölgələrdə, şəhər və kəndlərimizdə gördüyü milli geyim nümunələrini al-əlvan rəsmlərində də nəzərə çatdırmışdır. "Gənc oğlan", "Şamaxılı rəqqasə", "Zabit", "Bakılı qadın" və s. rəsmlər çox böyük maraqla qarşılanmışdır.

Milli geyimlərimiz Azərbaycan xalq yaradıcılığının – dekorativ-tətbiqi sənətinin geniş yayılan nümunələridir. Məhz buna görə də Bakıda, digər şəhər və rayonlarımızda fəaliyyət göstərən Tarix və Diyarşünaslıq Muzeylərində milli geyim nümunələri də nümayiş etdirilir, zövq oxşayır, yeni-yeni nümunələrin yaranmasına zəmin yaradır.

Azərbaycan milli geyim nümunələri ustadlarımızın bu günün insanlarına qədirbilənlik əlamətidir. Heç şübhəsiz, müxtəlif yaş qrupuna malik olan məktəbliləri yeri gəldikcə dərsdə və sinifdənxaric məşğələlərdə, o cümlədən dərnək məşğələlərində milli geyim nümunələri ilə tanış etmək müasir dövrün başlıca tələblərindən biri kimi dəyərləndirilməlidir.

**Problemin aktuallığı.** Azərbaycan xalq yaradıcılığının mühüm sahəsi sayılan dekorativ sənət nümunələrinin ayrı-ayrı növ və janrlarının naturadan və yaddaşa görə rəsm edilməsi prosesində də diqqət mərkəzində olmalı, fəaliyyətin uğurlu alınmasının metodik istiqamətləri kimi dəyərləndirilməlidir.

**Problemin elmi yeniliyi.** Dekorativ sənət nümunələri Azərbaycan xalq yaradıcılığının əsas sahəsini, əgər belə demək mümkünsə onurğa sütununu təşkil edir. Bu sənət nümunələrindəki naxışların, ornamentlərin, simmetriya ahənginin, müvafiq rəng əlaqələrinin dərnəyin ayrı-ayrı məşğələlərində şagirdlərə çatdırılması təsviri incəsənət metodikasının həmişə aktual olan məsələlərindəndir.

**Problemin praktik əhəmiyyəti.** Müşahidələr, qabaqcıl iş təcrübələri göstərir ki, dərsdənkənar məşğələlərinə həm ibtidai, həm də yuxarı sinif şagirdləri böyük maraq göstərirlər. Buna görə də əsasən V-IX sinif şagirdlərini əhatə edən "Dekorativ-tətbiqi sənət dərnəyi" təşkil etmək daha məqsədəmüvafiq sayılmalıdır.

**Ədəbiyyat:**

1. Abbasov, O.A. Təsviri incəsənət təliminin xüsusiyyətləri // İbtidai məktəb və məktəbəqədər tərbiyə, -1988, №4, - s.41-45.
2. Ağayev, Ə.Ə. Təlim prosesi: ənənə və müasirlik / Ə.Ə. Ağayev. - Bakı: Adiloğlu, -2004,. -113 s.
3. Atayev, S.H. İbtidai siniflərdə təsviri sənətin tədrisi metodikası / S.H. Atayev. - Bakı: Nurlan, -2001, -207 s.
4. Azərbaycanda təhsil siyasəti (1998-2004) / Tər.ed.Faiq Şahbazlı. – Bakı: Çaşıoğlu, - I cild, - 2005. -832 s.
5. Həbibov, H.D. Bədii zövq haqqında / H.D. Həbibov. – Bakı: Azərnəşr, - 1962. - 61 s.
6. Məmmədov, M.M. Təsviri incəsənət üzrə sinifdənxaric işlərdə şagirdlərin estetik tərbiyəsi / M.M. Məmmədov. – Bakı: - 1991,. - 18 s.
7. Xəlilov, V.C. Ömür yollarında / V.C. Xəlilov. – Bakı: Nərgiz, - 2012, - 376 s.

**E-mail:**elnara.rasulova70@gmail.com
**Rəyçi***: ped.ü.elm.dok. prof.* **V. Xəlilov**

**Redaksiyaya daxil olub:** 17.05.2021